# OSMANLI İMPERİYASI

Əsası 1299-cu ildə qoyulmuş bu dövlət 1922-ci ilədək mövcud olmuşdur. Altı əsrdən artıq yaşayan Osmanlı dövləti ən uzun ömürlü türk dövlətidir.Dövlətin qurucusu Oğuz türklərinin Qayı boyuna mənsub olan Ərtoğrul Qazinin oğlu Osman Qazi olmuşdur. Bu sülalənin əcdadları XIII əsrin birinci Anadolu bəylikləri yarısında Mərkəzi Asiyanın cənub-qərb bölgələrindən Anadoluya köç etmişdilər.1243-cü ildə Səlcuqlu dövləti Kösə dağ döyüşündə məğlubiyyətə uğradıqdan sonra Anadolunun siyasi birliyi pozuldu.Dövlətin parçalanması prosesində Qaramanoğulları, Aydın oğulları, Əşrəfoğulları, Kərəsioğulları, İsfəndiyar oğulları, Məntəşə oğulları kimi müstəqil bəyliklər yarandı. Onlardan biri də Osmanlı bəyliyi idi.1281-ci ildə Ərtoğrul Qazi özünün çox da böyük olmayan bəyliyini oğlu Osman Qaziyə vəsiyyət etdi. Osman Qazi əvvəlcə Anadolu Səlcuqlu dövlətinin ona Söyüt və Domançı bölgələrində sərhədyanı bəylik kimi ayırdıqları vilayətdə hakimlik edirdi. 1299-cu ildə Anadolu Səlcuqlu dövlətinin zəifləməsi nəticəsində Osman Qazi müstəqillik elan edərək öz dövlətinin əsasınıqoydu.Paytaxt Söyüt və ətraflarında çox mühüm qələbələr qazanaraq,Osman Qazi öz bəyliyinin sərhədlərini xüsusən Bizans imperiyası istiqamətində genişləndirdi. 1326-cı ildə Bursanın alınması iqtisadi və siyasi cəhətdən böyük nailiyyət oldu.Bursanın fəthindən sonra Osmanın oğlu Orxan bəyin əsas məqsədi Çanaq qalanı (Dardanel boğazı) keçib, Avropada möhkəmlənmək oldu. İznik və İzmit kimi mühüm Bizans şəhərlərinin tutulması Osman Qazi bəyliyinin sərhədlərini Qara dəniz və Üsküdara qədər genişləndirdi. Orxan bəy həmçinin öz ərazilərinə Karesi bəyliyini birləşdirdi, Balıkəsir və Çanaqqalanı,Mərmərə dənizinin cənub sahillərini tutdu. Bəyliklərin torpaqlarının ələ keçirilməsi Osmanlı dövlətinin dənizdə gücünün artmasına və Avropa ərazisinə keçməsinə zəmin hazırladı.Bizansda baş verən qarışıqlıqlardan istifadə edərək 1353-cü ildə Osmanlılar Avropa tərəfində yerləşən Çimpe qalasını tutdular.Beləliklə, gələcəkdə Vyana yaxınlıqlarına qədər fəthlər üçün önəmli addım atılmış oldu.Osmanlıların əsas məqsədi Anadoludakı türk-müsəlman bəylikləri ilə mücadilə deyil, islam dinini yaymaq idi. Ona görə də onlar Bizans imperiyası və Avropanın başqa dövlətlərini işğal etməyə çalışırdılar. Bununla da monqol hücumları səbəbindən Anadoluya köç edən türk tayfaları üçün yeni vətən əldə etməyə imkan yaranırdı.Sultan I Muradın əsas məqsədi Osmanlını qüdrətli bir dövlət halına gətir mək idi. I Murad məcbur qalmadıqca Anadolu bəylikləri ilə hərbi toqquşmaya girməməyə çalışırdı. Türklərin Balkanlarda irəliləməsi Osmanlı dövlətinə qarşı səlib yürüşlərinin təşkilinə gətirib çıxardı. Səlibçilərə qarşı ilk döyüşlər Osmanlıların

qələbəsi ilə nəticələnən Sırpsındığı və I Kosovo döyüşləri oldu. 1389-cu ildə taxta çıxan İldırım Bəyazid Niqbolu döyüşündə (1396-cı il) səlib çilərin birləşmiş qüvvələrini məğlubiyyətə uğratdı, lakin Ankara döyüşündə (1402-ci il)Teymura uduzdu. Onun əsir düşməsi və ölümündən sonra dövlət parçalanma təhlükəsi ilə qarşılaşdı, lakin I Mehmet ölkədə qayda-qanunu yenidən təmin etdi (1413-cü il).